MORRISON PARTNERS
LAW FIRM

**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **NOYABR 2013**
**MİQRASİYA QANUNVERİCİLİYİ**

## MİQRASİYA MƏCƏLLƏSİ

"Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununa əsasən 1 avqust 2013-cü il tarixdən Miqrasiya Məcəlləsi qüvvəyə minmişdir.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin qüvvəyə minməsi ilə "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında", "İmmiqrasiya haqqında", "Əmək miqrasiyası haqqında" və "'Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi qaydaları haqqında Əsasnamə'nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunları qüvvədən düşmüşdür. Azərbaycanda miqrasiya sahəsindəki münasibətləri tənzimləyən müxtəlif qanunvericilik aktlarının vahid məcəllə şəklinə salınması miqrasiya idarəetmə sistemini inkişaf etdirmək baxımından əhəmiyyətli addım hesab edilməlidir. Məcəllə, Azərbaycan Respublikasına gəliş və burada qalma və işləmə, habelə Azərbaycandan çıxmaq qaydalarını özündə birləşdirir.

Miqrasiya Məcəlləsi, Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti ilə bağlı normaları müəyyənləşdirir. Məcəllə, miqrasiya qanunvericiliyinin insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, qanun qarşısında bərabərlik və ədalətlilik, miqrasiya qanunvericiliyinin hamılıqla tanınan beynəlxalq hüquq normalarına uyğunluğunun təmin edilməsi, miqrasiya proseslərinin tənzimlənməsində innovativ metodların tətbiqi və şəffaflığın təmin edilməsi prinsiplərinə əsaslandığını bəyan edir.

Məcəllədə bir çox yeni normalar nəzərdə tutulmuşdur.

İlk dəfə olaraq əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin miqrasiya uçotu ilə bağlı normalar müəyyən olunub. Burada miqrasiya uçotunun məqsədləri, aparılma qaydası və əsasları öz əksini tapmışdır. Miqrasiya uçotu, miqrasiya proseslərinin idarə olunması formalarından biridir və Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla olan hər bir əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş sərbəst hərəkət etmək, ölkə ərazisində olma və yaşama yeri seçmək və digər hüquq və azadlıqlarının təmin olunmasına, habelə Azərbaycan Respublikasının miqrasiya sahəsində milli maraqlarının həyata keçirilməsinə və qanunsuz miqrasiyanın qarşısının alınmasına yönəlmişdir.

Məcəllədə vizalarla əlaqədar ayrıca fəsil nəzərdə tutulmuşdur. Həmin fəsildə vizaların növləri və kateqoriyaları müəyyən edilmiş, viza verilməsi üçün tələb olunan sənədlərin siyahısı və vizaların verilməsi qaydası öz əksini tapmış, vizalarla bağlı müraciətlərə baxılması müddətləri göstərilmişdir. Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə adi kateqoriyalı giriş vizalarının rəsmi səfər, işgüzar səfər, elm və ya təhsil, əmək, müalicə, şəxsi səfər, humanitar səfər, mədəniyyət və idman, turizm, tranzit viza kimi növlərinin verilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda, Məcəllədə vizaların verilməsi prosesi sadələşdirilmiş, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların verilməsinin, habelə Azərbaycan Respublikasının ərazisində olma və ya yaşama icazələrinin alınması üçün elektron qaydada müraciət etmək imkanı da nəzərdə tutulmuşdur.

Turistlərə elektron vizaların verilməsi 2011-ci ildən qanunvericiliyə daxil edilmiş və Miqrasiya Məcəlləsində elektron vizalarla bağlı məsələyə xüsusi maddə ayrılmışdır. Məcəllədə turizm məqsədi ilə verilən giriş

vizasında ölkədə qalma müddəti 30 günədək müəyyən edilir. Miqrasiya Məcəlləsinə əsasən, elektron vizanın alınması üçün Azərbaycan Respublikasında akkreditasiyadan keçmiş turizm şirkəti müvafiq icra hakimiyyəti orqanının internet informasiya ehtiyatında yerləşdirilmiş elektron ərizə-anketi dolduraraq, şəxsin pasportunun, fotoşəklinin və səfərin turizm məqsədi ilə həyata keçirildiyini təsdiq edən sənədlərin (turizm vauçeri və ya turizm yollayışı, sərnişin bileti və mehmanxanada, kempinqdə, turist bazasında və ya digər bu kimi obyektlərdə yer sifariş edilməsini təsdiqləyən sənəd) skan olunmuş surətlərini əlavə edir. Sənədlər daxil olduqdan sonra ən geci on gün keçənədək baxılır və viza rəsmiləşdirilərək, elektron qaydada müraciət edən turizm şirkətinin elektron poçt ünvanına göndərilir.

"Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ləğv edilmiş "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Qanuna görə müvəqqəti yaşamaq üçün icazələr, onların verilməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunla müəyyən edilmiş qaydada ləğv edilə və ya dörd dəfədən çox olmamaqla onların müddəti uzadıla bilərdi. Yeni qəbul edilmiş Miqrasiya Məcəlləsində bu məhdudiyyət aradan qaldırılmışdır.

Miqrasiya Məcəlləsinə əsasən Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə bir ildən artıq olmayan müddətə verilir və, müvafiq əsas olduqda, hər dəfə iki ildən çox olmayan müddətə uzadıla bilər. Eyni zamanda ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə üç ildən artıq olmayan verilə və hər dəfə üç ildən çox olmayan müddətə uzadıla bilər.

Qeyd edilən dəyişikliklərə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş ''immiqrant", "immiqrant statusu" anlayışları Miqrasiya Məcəlləsində "Azərbaycan Respublikasının ərazisində daimi yaşayan", "daimi yaşamaq üçün icazə" anlayışları kimi göstərilmişdir.

Başqa dəyişiklik ondan ibarət oldu ki, ezamiyyətə gələn əcnəbilərə tətbiq edilən iş icazəsini almaq tələbindən ümumi azadolmanın yerinə yalnız sahələr üzrə məhdudlaşdırılmış azadolma nəzərdə tutulub (sahələrin müəyyən edilməsi Nazirlər Kabinetinə tapşırılıb). İş icazəsi verildiyi hallarda isə onun müddətinin yalnız dörd dəfə uzadılması məhdudiyyəti Məcəlləyə salınmayıb. Əlavə olaraq, Məcəllədə xarici ölkələrdə işə düzəlməsində eyni qaydaların nəzərdə tutulmasına baxmayaraq, Məcəlləyə görə yalnız həmin sahədə vasitəçilik göstərməsinə icazəsi olan şirkətlər bu barədə elan və reklamlar verə bilər.

Miqrasiya Məcəlləsi Azərbaycana gəliş və burada qalmaq və işləmək qaydalarının əsasını qoyan qanunvericilik aktıdır – onun tətbiqi məsələsi həm müvafiq tənzimləyici aktların (məs., yeni Məcəllənin pozulmasına görə məsuliyyət növlərini, qanunsuz miqrantların saxlanılması qaydalarını, işəgötürənlərin əcnəbi işçi qüvvəsinə olan tələbatı haqqında proqnoz-məlumatlarına baxılması prosedurunu müəyyən layihə sənədlərinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən hazırlanması daxil olmaqla) qəbul edilməsi, habelə qəbul edilmiş tələblərin (məs., müvafiq növ vizaların verilməsi) praktikada tətbiqi ilə bağlıdır.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2013 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.